**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

**Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihə**

**Kredit № 4394AZ**

Azərbaycan Hökuməti Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin (bundan sonra TSİİL) xərclərini ödəmək məqsədilə Dünya Bankından maliyyə vəsaiti almışdır. Həmin vəsaitin bir hissəsinin məsləhətçi xidmətlərinə sərf edilməsi nəzərdə tutulmuşdur.

TSİİL çərçivəsində ümumi orta (5-9-cu siniflər) və tam orta (10-11-ci siniflər) təhsil səviyyələri üzrə yeni fənn kurikulumları hazırlanıb təsdiq edilmişdir. Növbəti tədris ilindən ümumtəhsil məktəblərinin 5-ci siniflərində yeni fənn kurikulumlarının tətbiqi nəzərdə tutulur. Bu məqsədlə 5-ci sinif şagirdlərinə dərs deyəcək fənn müəllimləri üçün təlimlərin keçirilməsi planlaşdırılmışdır. Azərbaycan Respublikasının Təhsil Nazirliyi qeyd olunan təlimlərin keçirilməsində iştirak etmək istəyən məsləhətçi təşkilatları aşağıda göstərilmiş müqavilələr üzrə xidmətlərin göstərilməsinə maraqlarını ifadə etməyə dəvət edir.

*1. Müqavilə № 4394AZ-QCBS-172:* Yeni ümumi orta təhsilin **Həyat bilgisi** kurikulumu üzrə 2012/2013-cü tədris ilində **Abşeron və Dağlıq Şirvan iqtisadi rayonlarının** 5-ci sinif şagirdlərinə dərs deyəcək fənn müəllimləri üçün təlim

*2. Müqavilə № 4394AZ-QCBS-173:* Yeni ümumi orta təhsilin **Həyat bilgisi** kurikulumu üzrə 2012/2013-cü tədris ilində **Şəki-Zaqatala və Quba-Xaçmaz iqtisadi rayonlarının** 5-ci sinif şagirdlərinə dərs deyəcək fənn müəllimləri üçün təlim

*3. Müqavilə № 4394AZ-QCBS-174:* Yeni ümumi orta təhsilin **Həyat bilgisi** kurikulumu üzrə 2012/2013-cü tədris ilində **Gəncə-Qazax iqtisadi rayonunun** 5-ci sinif şagirdlərinə dərs deyəcək fənn müəllimləri üçün təlim

*4. Müqavilə № 4394AZ-QCBS-175:* Yeni ümumi orta təhsilin **Həyat bilgisi** kurikulumu üzrə 2012/2013-cü tədris ilində **Aran və Yuxarı Qarabağ iqtisadi rayonlarının** 5-ci sinif şagirdlərinə dərs deyəcək fənn müəllimləri üçün təlim

*5. Müqavilə № 4394AZ-QCBS-176:* Yeni ümumi orta təhsilin **Həyat bilgisi** kurikulumu üzrə 2012/2013-cü tədris ilində **Lənkəran iqtisadi rayonunun** 5-ci sinif şagirdlərinə dərs deyəcək fənn müəllimləri üçün təlim

**Xidmətlərin icra müddəti:** iyun-dekabr 2012-ci il

Xidmətlərə maraq göstərən məsləhətçi təşkilatlar Maraq İfadələrini hər bir müqavilə üzrə ayrıca təqdim etməklə müvafiq ixtisas tələblərinə və təcrübəyə cavab verdiklərini təsdiq edən aşağıdakı məlumatları və sənədləri təqdim etməlidirlər:

- müraciət məktubu;

- yerinə yetirilmiş müvafiq xidmətlərin təsviri;
- müvafiq bacarıq və təcrübəyə malik olan heyət haqqında məlumat;
- nizamnamə.

Birdən artıq müqaviləyə maraq bildirən təşkilatlar zəruri maddi və insan resurslarına malik olmalıdır.

**Məsləhətçi təşkilatların ixtisas uyğunluğunu və təcrübəsini qiymətləndirmək üçün meyarlar:**

- Nizamnaməsinə uyğun olaraq, təşkilatın fəaliyyət istiqamətləri arasında insan resurslarının inkişafı və ya təlimlərin olması;
- Məktəblərlə birgə layihələrin həyata keçirilməsi sahəsində iş təcrübəsi;
- Müəllimlər üçün təlim kurslarının keçirilməsində təcrübəsi olan təşkilatlar üstünlüyə malik olacaqdır.

Məsləhətçi təşkilatlar ixtisas uyğunluğunu gücləndirmək məqsədilə digər təşkilatlarla birgə müəssisə və yaxud sub-məsləhətçi formasında assosiasiya yarada bilərlər.

Məsləhətçi təşkilatların seçimi Dünya Bankının "Borcalanlar tərəfindən Məsləhətçilərin Seçimi və İşə Götürülməsi Qaydaları"nda (2004-cü ilin may ayında nəşr edilmiş, 2006-cı ilin oktyabr ayında və 2010-cu ilin may ayında düzəliş edilmiş Qaydalar) əks olunan *Keyfiyyət və Dəyərə Əsaslanmış Seçim* metodu ilə aparılacaqdır. Xidmətlərə maraq göstərən məsləhətçi təşkilatlardan xahiş olunur ki, qeyd olunan Qaydaların 1.9 paraqrafına (Maraqların Ziddiyyəti) diqqət yetirsinlər.

Maraqların ifadəsi yazılı şəkildə **2011-ci il dekabrın 16-dək** aşağıdakı ünvana təqdim edilməlidir:


Azərbaycan Respublikasının Təhsil Nazirliyi,

Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihə,

Layihənin Əlaqələndirmə Qrupu,

AZ1008, Bakı şəhəri, Xətai prospekti, 49.

Əlaqələndirici şəxs: Elvin Rüstəmov

Əlaqə telefonları: 496-37-59, 496-37-60; faks: 496-93-68.

Email: erustamov@ultel.net

Əlavə məlumatları iş günləri ərzində saat 09:00-dan 18:00-dək eyni ünvandan əldə etmək olar.